## Cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslər sosial adaptasiya müddəti ərzində iş yerləri ilə təmin edilməsinin zəruriliyi

Dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də gün ərzində yüzlərlərlə irili-xırdalı cinayətlər, qanun pozuntuları baş verir ki, bunun da nəticəsində bəzi şəxslər hüquqi məsuliyyətə cəlb olunur və bu məsuliyyətlərin bir çoxu azadlıqdan məhrumetmə ilə nəticələnir. Cinayət növündən, xarakterindən, səbəbindən, qısa və ya uzunmüddətli azalıqdan məhrum edilməsindən asılı olmayaraq bütün məhbusluğu olan şəxsləri birləşdirən ortaq bir sosial problem – İşsizlik problemidir.

İşsizlik bu gün ölkəmizdə daha öncələr heç bir cinayət tərkibli əməl törətməmiş şəxsləri belə cinayət törətməyə təşviq edərkən, öncələr məhbusluğu olan şəxsləri bu yolda daha "rahat" istiqamətləndirmək üçün çox təhlükəli və qısa bir zamanda həll olunması labüd, həll edilmədiyi təqdirdə işsizliyin öz həcmi qədər sosial balansı pozacaq bir problemdir. İşsiz və sığınacaq yersiz hər hansı bir səbəbdən keçmiş məhbusluğu olan şəxslər, onlar üçün yaşayış və sığınacaq yeri, qidalanmağa yemək vəd edən "komfort zona"ya – həbsxanalara təkrar cinayət törətməklə qayıtmağı sosial şəraitlərini nəzərə alaraq ən düzgün və alternativsiz variant olaraq qəbul edirlər.

Statistika göstərir ki, ölkədə cari məhbusların 50%-dən daha çoxunu təkrar məhbuslar təşkil edir. Cəmiyyətə uyğunlaşmaqda çətinlik çəkən, sosial çevrəsi məhdud və əmək məşğulluğu baxımından "bekar" şəxslər üçün bu variant, təəssüf ki günümüzdə də aktual olmaqda davam edir.

Öncələr hər hansı bir cinayət tərkibli əməl törətdiyinə görə azadlıqdan məhrum edilmiş şəxslərin iş yerləri ilə onların azadlığa çıxdığı müddətdən sonra sosial adaptasiya dövrü hesab edilən 1 il müddət ərzində təmin edilməsinin aşağıdakı mümkün potensial müsbət təsirləri var:

1. *Təkrar cinayətlərin sayı azalacaq;*
2. *Ölkədə kriminal vəziyyətlərin say etibarı ilə kəskin azalması baş verəcək;*
3. *Həbsxanalarda kəskin-ağır şəaritli vəziyyətə uyğunlaşan məhbuslar azadlıq dövründə xüsusən zərərli iş yerləri hesab edilən iş yerlərinə cəlb edilə bilər və bu tipli iş yerlərinə daha rahat uyğunlaşa bilərlər. Beləliklə işəgötürənlər – xüsusilə də istehsalat müəssisələri, zavod və fabriklər*

*zərərli və təhlükəli iş yükü ehtiva edən peşələrə daha rahat və daimi işçi kütləsi qazana bilər;*

4. *Məhbusluğu olan şəxslərin sosial adaptasiya müddətlərinin sosial rifaha uyğun olaraq qısalması ilə cəmiyyət üçün sağlam fərdlər qazanıla bilər;*
5. *Əmək qabiliyyətli əhalinin artması və dövlətdən asılılığın azalması, büdcədən müavinət alan kütlənin azalması;*
6. *Məhbus sayının azalmasına mütənasib olaraq həbsxana və təcridxanaların saxlanılması üçün xərclərin azalması;*
7. *Məhbusluğu olan şəxslərin ailə üzvlərinin də onlarla birlikdə cəmiyyətə inteqrasiyası.*

Bütün məsələlərdə olduğu kimi, məhbusların iş yerləri ilə dərhal təmin edilməsinin törədə biləcəyi mənfi nəticələr də mövcuddur:

1. *Cəmiyyətin digər üzvləri işsiz olduğu halda məhbusların daimi və ya mövsümi işlərlə təmin edilməsi bəzi həssas qruplar tərəfindən birmənalı qarşılanmaya bilər;*
2. *İş yerlərində kollektiv tərəfindən sosial ayrıseçkilik kin və nifrət hisslərinin qabarmasına, sağlam iş kollektivinin və sağlam iş münasibətlərinin pozulmasına səbəb olmaqla müəssisələrin iş axınlarıa mənfi istiqamətdə əhəmiyyətli təsir göstərə bilər.*

Bu qrup şəxslərin cəmiyyətə qazanılması və iş yerləri ilə təmin edilməsində işəgötürənlər üzərində böyük məsuliyyət var. Təəssüf ki hazırda işəgötürənlər aşağıda sadalanmış səbəblərə görə öncələr məhbsuluğu olan vətəndaşları iş yerləri təmin etməkdən obyektiv və subyektiv səbəblərdən dolayı imtina edirlər:

1. *İşəgötürənlər bu qrup şəxslərə etimad etmir;*
2. *Kommersiya sirlərini etibar etməkdən çəkinir;*
3. *İşin normal axınını və gedişatını pozmaq istəmir, xüsusən xidmət və ictimai iaşə sahələrində iş icrasını tapşırmaqdan çəkinir.*

Yuxarıda qeyd edilən əks-arqumentlərin formalaşması bu istiqamətdə maarifləndirmə işlərinin aparılmamasından qaynaqlanır. Sadlananan əks-arqumentlərin bir çoxu subyektiv mənşəli olsa da, obyektiv yanaşmadan yaranan tərəfləri də mövcuddur, hansı ki bu səbəblər məhbusluğu olan şəxslərin birbaşa

özlərindən qaynaqlanır. Lakin insan sosial varlıqdır və sosial mühitdən uzun müddət təcrid olunma özü ilə birlikdə ciddi asosial davranışlara və sosial davranış pozuntularına gətirə bilər. Həm azadlıqdan məhrum edulmiş müddət ərzində, həm də azadlığa buraxıldıqdan sonrakı sosial adaptasiya dövründə psixoloqların prosesə cəlb edilməsi qeydədəyər müsbət nəticələrin qazanılmasına səbəb olacaqdır. Digər tərəfdən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işəgötürənlər üzərində işəqəbul planına bu qrup şəxslərin daxil edilməsi, illik kvotanın qoyulması və bu prosesin daimi izlənərək nəzarətdə saxlanılması tədricən cəmiyyət tərəfindən bu halların normal qarşılanmasına, onlara sosial adaptasiya müddəti ərzində həssas qrup kimi yanaşılmasına təkan verəcək.

Son dövrlərdə dövlət tərəfindən həyata keçirilən proqramlar və atılan addımlar məhbusluğu olan şəxslərin həyat şərtlərinin nisbətən yaxşılamasına səbəb olmşdur. Xüsusən də “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanunun qəbul edilməsi müsbət təsirini göstərmişdir.

Qanuna əsasən, sosial adaptasiya müddəti 1 il təyin edilmişdir və yalnız müvafiq icra hakimiyyətinin təsdiqi əsasında daha 1 il uzadıla bilər.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə həyata keçirilən ən vacib tədbirlər qanuna əsasən aşağıdakı şəkildə bölünmüşdür:

1. *Cəza çəkməkdən azad edilmiş şəxsləri qeydiyyata almaq, onlarla hazırlıq işlərini aparmaq;*
2. *Sosial adaptasiya mərkəzləri yaratmaq;*
3. *Daimi yaşayış sahəsi olmayan şəxsləri bu Qanunla müəyyən olunmuş müddətdə müvəqqəti yaşayış yeri ilə təmin etmək;*
4. *Cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə, tibbi və sosial yardımla təmin edilməsi sahəsində müvafiq tədbirləri həyata keçirmək;*
5. *Təhsil almalarına şərait yaratmaq;*
6. *Şəxsiyyətini təsdiq edən və digər lazımi sənədlərlə təmin etmək;*
7. *Cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti vermək;*
8. *Cəza çəkməkdən azad edilmiş şəxslərə hüquqi, psixoloji və informasiya yardımı göstərmək.*

Qəbul edilmiş qanunun 11-ci maddəsində Cəza çəkməkdən azad edilmiş şəxslərin məşğulluğunun təmin olunması ilə bağlı bəndlər olsa da, prosesin təmin

edilməməməsi və nəzarət mexanizminin olmaması qanunun işləməsinə əngəl törədir. Həmin maddəyə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə təmin edilməsi sahəsində (o cümlədən kvota üzrə iş yerlərini müəyyən etməklə) tədbirləri müvafiq icra hakimiyyəti orqanı həyata keçirməlidir. Bundan əlavə, müvafiq icra hakimiyyəti orqanı cəza çəkməkdən azad edilmiş himayəsində 14 yaşadək uşağı olan tənha qadınların məşğulluğunun təmin edilməsini həyata keçirməlidir.

Qəbul edilmiş qanunun tətbiq edilməsi, onun tətbiq sahələrinin genişləndirilməsi üçün dünya praktikasından geniş istifadə edilməldir. Bütün dünya qəbul edir ki, həbs bir ayrı-seçkilikdir və bu ayrı-seçkiliyə ən yaxşı örtük həbsdən sonra məhbus olmuş şəxslərin sosial rifahlarını yaxşılaşdırmaq – onları iş yerləri ilə təmin etmək ola bilər.

Ölkə miqyasında məhbusluğu olan şəxslərin iş yerləri ilə təmin edilməsi üçün aidiyyəti dövlət qurumları tərəfindən layihələr və iş planları hazırlanmalı, işləmə mexanizminə, düzgün tətbiq dairəsi və metodlarına nəzarət edilməldir. Layihənin hazırlanması üçün təklif etdiklərim aşağıda sıralanmışdır.

1. *Dünya praktikasından və xüsusilə iqtisadiyyatı və mental yaşam tərzləri Azərbaycana yaxın olan ölkələrin müsbət nəticələrindən və təcrübələrindən model olaraq istifadə olunmalı;*
2. *Peşə hazırlığı istiqamətində vacib addımlar atılmalı;*
3. *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işəgötürənlər üzərində kvota qoyulmalı;*
4. *Sosial adptasiya müddəti ərzində məhbusluğu olan şəxslər tibbi və xüsusi ilə psixoloji xidmətlər paketi ilə ödənişsiz olaraq təmin edilməli;*
5. *Qəbul edilmiş qanun layihəsinə yenidən baxılmalı;*
6. *Qanundan irəli gələn xidmətləri icra edən qurumların işlərinə nəzarət mexanizmləri tətbiq edilməli.*

Düşünürəm ki, yuxarıda qeyd etdiklərimi nəzərə alsaq, problemin qısa zaman ərzində həll edilməsi labüd və zəruridir. Beləliklə, problemin həlli vətəndaşlar arasında sosial rifah bərabərsizliyini müəyyən qədər tarazlaşdırmaqda, ləyaqətli maddi təminatlı və mənəvi təmiz cəmiyyət fərdlərinin sayını artırmaqda, onları cəmiyyətə qazandırmaqda vacib rol oynayacaq.